# Görkəmli adamlar Azər Turan haqqında

...Azər Turan! Dəyərli dostum... Pak şəxsiyyətin, dərin düşüncən, qüvvətli qələmin Sənə Turan soyadını daşımağa tam haqq verir.

Tanrı Səni – Cavid ocağının ləyaqətli varisini bütün bəlalardan qorusun, Amin!

***

İmamverdi Əbilovun "Elmin və ömrün romantikası" kitabında Turan Cavid ona ünvanladığı məktubda yazır: Sizin Azərbaycan xalqı qarşısında xidmətlərinizi üst-üstə yığsaq, "Azər Turanın atası" statusundan ağır və şərəfli ola bilməz. Azər sizin övladınız, millətin iftixarı, mənim isə arzu, əməl və ümidlərimin daşıyıcısıdır.

***Turan Cavid,***
***şair, əməkdar mədəniyyət işçisi.***

Azər Turan "Cavidnamə" kitabını Cavidin adına, şöhrətinə, türbəsinə, ruhuna layiq bir səviyyədə yaradıb. Əgər Azər bu vaxta qədər heç bir kitabı nəşr etdirməsəydi, "Cavidnamə"dən sonra bir sətir yazı yazmasaydı belə, təkcə bu əsərlə əbədi yaşamaq hüququ qazanardı.

***

Uzun illərin müşahidəsi kimi məndə belə bir fikir formalaşıb ki, Azər Turan Cavid Əfəndinin ömür-gün yoluna ayna tutmaq, böyük şairin faciəli taleyini, çoxşaxəli və uzunömürlü yaradıcılığını, fikir və məfkurə dünyasını bütün çalarları və rəngləri, bütün istiqamətləri və yönləri ilə açmaq, təhlil və vəsf etmək, sevmək və yenidən sevdirmək üçün bu dünyaya gəlib.

Sağ ol, bu kitabı XX əsrin əvvəllərindən bütün çalarları ilə, qayğıları, göz yaşları, iztirabları, sevgiləri ilə XXI əsrə gətirən qeyrətli Vətən oğlu, qüdrətli qələm sahibi, Azər Turan!

***Zəlimxan YAQUB,***
***Xalq şairi***

Müxtəlif illərdə (ancaq eyni üslub metafizikası ilə) yazdığı məqalə-esselərin toplandığı bu kitab – "Əbədi Turan" elə bilirəm ki, onlarla kitab, yüzlərlə məqalə müəllifi olan Azər Turanın şah əsəridir. Əsərin qəhrəmanları Alp Ər Tonqa, Dədə Qorqud, Mahmud Kaşqaridən başlamış Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Çingiz Aytmatova qədər gələn türk-Turan dahiləridir ki, müəllif onların Portretlərini yaratmaqla hər bir türk üçün yalnız mistik-mifoloji deyil, həm də gerçək tarixi vətən olan türk-Turan dünyasının mənəvi coğrafiyasını təqdim etmişdir. Elə bir coğrafiya ki, etnosun Ergenekondan başlayan təbii (passionar!) tarixi və taleyi onun miqyasını həmişə genişləndirmiş, qərəzli (və düşmən) tarix kitabları isə öz aləmlərində həmin miqyas genişliyinə məhdudiyyət qoymağa çalışmışlar.

**Nizami Cəfərov,**
**Akademik**

Azər Turan Azərbaycan ədəbiyyatı və mənəviyyatının öndə gedən simalarından biridir. Onun bizim təklifimizi qəbul edib gəlməyi universitetimiz üçün əlamətdar hadisədir. Ədəbi proses qəzet və jurnalların ətrafında formalaşır. Bu mənada Azər Turanın həyata keçirdiyi fəaliyyət bu ədəbi prosesin canlanmasına yönəlib.

***Kamal Abdulla,***
***ictimai xadimi, filologiya elmləri doktoru, professor***

İmamverdi Əbilovun ağıl və ədəb keyfiyyətlərinin birləşdiyi və parlaq ifadəsini tapdığı ən qiymətli əsəri Azər Turandı. Özü də bunun fərqində idi, bütün təmənnasızlığının və ədəbiyyat fədakarlığının müqabilində Azər Turan kimi oğlulla mükafatlandırıldığının fərqində idi.

***

Azər Turan kimi əxlaqi və mənəvi keyfiyyətləri özündə daşıyan və qoruyub hifz edən bir şəxsiyyətlə məsləkdaş olmağın deyil, eyni zamanı bölüşməyin, həmmüasir olmağın özü artıq qələbədir!

***Elnarə Akimova,***
***ədəbiyyatşünas, tənqidçi***

Ədəbiyyatımızda Azər Turan adında bir imza var. Bu imza ötən əsrin axırlarından bu günə qədər yol gəlir və bundan sonra da dayanmadan həmin yolu tutub gedəcəkdir. Bu yolun başlanğıcı da Vətən, sonu da Vətəndir! Onun vətən, yurd sevgisinin zamanı intəhasızdır, sonsuzdur...

Ürəyinizə hərarət, qəlbinizə bərəkət, qəlbi Turan olan insan. Yaşayın və yaradın!.. Qoy ilham pəriniz sizi müjdələsin yeni-yeni şeirlərə, pıçıldasın qulağınıza misraları, bəndləri. Tanrı sizi və sizin simanızda vətən övladlarını qorusun.

**Aynurə Əliyeva,**
**filalogiya üzrə fəlsəfə doktoru**

Bu dünya ən böyük reallığı inkar dır, inkar bu dünyanın simvoludur. Tanınmış düşüncə adamı, ədəbiyyatşünas Azər Turanın "XX əsr – Fəryadın metafizikası" kitabı bu mənanı ifadə edən yazılarla, esselərlə zəngindir. Mən belə düşünürəm ki, Azər Turan kitabında məhz bu böyük məqamı diqqət mərkəzinə çəkib, mütləq inkarı inkar etməkdən ötrü həmin esseləri yazıb, böyük bir yaradıcı missiya iddia edib (bu iddianı da gerçəkləşdirib).

***İbrahim İbrahimli***

Azər Turanın qayəsi şərəfli sələflərimizin bizə miras qoyduğu işıqlı əməlləri xələflərimizə gözəl bir şəkildə ötürmək istəyidir. Çünki insanlıq işıq həsrətlisidir. İnsanlıq həmişə işığa doğru gedib. İşıq gələn yerə barmaq tıxayanlar ani bir ekzotik fakt kimi maraqlı olur. Bütün bunlar tarixdə min dəfə olub və tarix ondan ibrət almaq üçündür. Keçmiş insan cəmiyyətinin istinad nöqtəsidir, bu istinad nöqtəsinə dayanmadan gələcəyə gedilməz.

Azər Turanın əsərləri bu istinad nöqtəsini möhkəmləndirməyə xidmət edən bir vasitədir, şanlı keçmişə işıq salmağa, gələcəyə yol açmağa edilən cəhddir.

***Elxan Zal Qaraxanlı,***
***şair, esseist***